**Nübar Şahmalızadə**

# BİOLOGİYA

## SINAQLAR TOPLUSU

**BAKI - 2026**

**Elmi redaktor:** Elman Şirinov

**Rəyçi:** Vüsalə Əliyeva

**Layihə rəhbəri:** Leyla Həsənova

**Korrektor:** Günay Rüstəmova

**Nübar Şahmalızadə. BİOLOGİYA Sınaqlar toplusu**
Bakı, Qanun Nəşriyyatı, 2026, 108 səh.

Topluya daxil edilən 20 sınaq imtahanı DİM-in qəbul proqramı və imtahan modelinə tam uyğun şəkildə hazırlanmışdır. Vəsaitdə bütün bölmələri əhatə edən suallar, mətn üzərində iş (situasiya sualları) tələb edən tapşırıqlar yer almışdır. Bu vəsait ali məktəblərə qəbul imtahanının IV ixtisas qrupu üzrə hazırlaşan abituriyentlər və müəllimlər üçün nəzərdə tutulmuşdur.

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0786

© Qanun Nəşriyyatı, 2026
© Nübar Şahmalızadə, 2026

# Sınaq 1

1. **Heyvan orqanizminin təsnifatı olan sıranı seçin.**
A. Aləm, Sinif, Tip, Dəstə, Cins, Fəsilə, Növ
B. Tip, Şöbə, Sinif, Sıra, Fəsilə, Cins, Növ
C. Aləm, Şöbə, Sinif, Sıra, Fəsilə, Cins, Növ
D. Aləm, Tip, Sinif, Dəstə, Fəsilə, Cins, Növ
E. Aləm, Sıra, Fəsilə, Sinif, Şöbə, Növ, Cins

**2. Saçaqlı kök sisteminə malik olan bitkilər hansılardır?**
A. Lobya, noxud
B. Quşəppəyi, bağayarpağı
C. Bağayarpağı, zanbaq
D. Noxud, zəncirotu
E. Ağ turp, lobya

**3. 150 yaşlı ağacda neçə kambi qatı var?**
A. 150
B. 149
C. 1
D. 151
E. 2

**4. Ceyranotu (şiyav) bitkisinin çiçək düsturu hansıdır?**
A. $Ç_{2+(2)}E_3D_1$
B. $Ç_{2+(3)}E_3D_1$
C. $Ç_{3+3}E_6D_1$
D. $Ç_{2+(2)}E_3D_0$
E. $Ç_2E_4D_1$

**5. Uyğun variantı seçin**
1.Skelet əzələsi
2. Ürək əzələsi
a) iradidir
b) qeyri iradidir
c) lifləri bir-biri ilə ilişikdir.
d) sümüyə birləşir

A) 1.a,b; 2.c,d
B) 1.a,d; 2.b,c
C) 1. a,c; 2.b,d
D) 1.b,c; 2.a,d
E) 1.c,d; 2.a,b

**6. Şəkildəki canlının aid olduğu sinfə aid yanlış ifadəni seçin.**



A) Həzm sistemi orqanlarına aiddir: ağız, udlaq, qida borusu, mədə, bağırsaq, qaraciyər, mədəaltı vəzi, anal dəlik.
B) 5-7 cüt qəlsəmə yarıqları olur.
C) 4 cüt qəlsəməgətirici, 4 cüt qəlsəməçıxarıcı damarlara malikdir.
D) Üzgəc şüaları arasında dəri pərdə vardır.
E) Onurğa sütunu 38-42 fəqərədən təşkil olunmuşdur.

**7. 500 hüceyrədən ibarət volvoksun neçə qamçısı var?**
A) 2
B) 500
C) 499
D) 10000
E) 1

**8. Hidranın ən kiçik hüceyrəsi?**
A) Dalayıcı hüceyrə
B) Sinir hüceyrəsi
C) Dəri-əzələ hüceyrəsi
D) Həzm hüceyrəsi
E) Aralıq hüceyrəsi

**9. Qan-damar sistemi ilk olaraq yaranmışdı.**
A) Həlqəvi qurdlarda
B) Sap qurdlarda
C) Yastı qurdlarda
D) Azqıllı qurdlarda
E) Çoxqıllı qurdlarda

**10. Qaraciyər sorucusunda quyruqlu sürfə harada əmələ gəlir?**
A) Əsas sahibdə
B) Aralıq sahibdə
C) Suda
D) Bitki üzərində
E) Torpaqda

**11. Şəkil haqqında doğru fikir hansıdır.**



A) Profaza mərhələsində xromosom sayı 2n, Xromatid sayı 4c-dir
B) İnterfaza mərhələsi qısa olduğuna baxmayaraq DNT ikiləşməsi baş verir.
C) Eyni əlamətlərə malik xromosomların birləşməsi zamanı gen mübadiləsi baş verir.
D) Anafaza mərhələsində xromosom sayı 2n, Xromatid sayı 2c-dir
E) Prokariot orqanizmlərdə rast gəlinir.

**12. Abiotik amillərə aiddir.**
A) Bioloji saat
B) Rütubət
C) Populyasiya
D) Fotoperiodizm
E) Biosenoz

**13. X-i müəyyən edin.**




A) Udlaq
B) Damaq
C) Dil
D) Qırtlaq
E) Traxeya

**14. Uyğunluğu müəyyən edin.**

| 1 yura | 2 Devon | 3Ordovik | 4 Neogen |
|---|---|---|---|
| Arxiop-teriks yaranıb | Qatırquy-ruğu yaranıb | Onurğa əmələ gəlib | Tayqa əmələ gəlib |
| Qıjıki-milərin yayılıb | Mil kök sistemi | Gövdə əmələ gəlib | Driopiteklər meydana çıxıb |
| İri sürünən-lərin hökm-ranlığı | Göz qapaqları | Zirehlilər yaranıb | Örtülütoxumluların hökümranlığı |
| Lələk əmələ gəlib | Steqosefa l | Mexaniki toxuma | Avstrolopiteklərin hökmranlığı |

1. 2. 3. 4.

A) Təbaşir, Silur, Ordovik, Paleogen
B) Yura, Perm, Kembri, Paleogen
C) Yura, Devon, Ordovik, Neogen
D) Trias, Devon, Silur, Neogen
E) Trias, Silur, Ordovik, Antropogen

**15. Süni seçmə ilk dəfə hansı erada meydana çıxmışdır.**
A) Proterozoy
B) Paleozoy
C) Arxey
D) Mezazoy
E) Kaynozoy

**16. Müasir hüceyrə nəzəriyyəsinin 3-cü müddəası kim tərəfindən irəli sürülmüşdür?**
A) T.Şvan
B) M.Şleyden
C) Virxov
D) K.Ber
E) Ç.Darvin

**17. X ilə göstərilmiş nahiyyə haqqında fikirlərdən biri yanlışdır.**




A) Gözün optik hissəsidir.
B) Göz almasını qanla təchiz edir.
C) Ön tərəfində qüzehli qişa yerləşir.
D) Radial və dairəvi əzələlər ilə əhatələnir.
E) Sıx qan-damar şəbəkəsinə malikdir.

**18. X+Y+Z - i tapın.**

| Yarasada çiyin qurşağının sayı | Qurbağanın aşağı ətraf üzmə pərdəsinin sayı | Göyərçinin caynaqlarının sayı |
|---|---|---|
| X=4 | Y=8 | Z=8 |

A) 17
B) 19
C) 18
D) 16
E) 20

**19. Bətndaxili inkişafın rüşeym dövrü üçün hansı xüsusiyyət səciyyəvidir?**
A) Orqanların böyüyüb yetişməsi baş verir
B) Dölün kütlə artımı sürətlənir
C) Rüşeym vərəqləri formalaşır və orqanların təməli qoyulur
D) Cift tam formalaşır və hormon ifraz edir
E) Dölün aktiv hərəkətləri hiss olunur

**20. 35 yaşlı insanın bütün dişləri ağzında olarsa, həyatı boyu neçə azı dişi olmuşdur?**
A) 20
B) 8
C) 27
D) 28
E) 32

**21. Arxaromerinosun seleksiyası ilə məşğul olan alim kimdir?**
A) Y.Y.Lusis
B) M.F.İvanov
C) V.S.Kirpiçnikov
D) İ.V.Muçirin
E) G.D.Karpeçenko

**22. Kinə ağacı bitkisinin mənşə mərkəzi hansı qitədə yerləşir?**
A) Asiya
B) Amerika
C) Afrika
D) Avropa
E) Asiya və Afrika

**23. Şəkildə göstərilən ürəyin aid olduğu sinfə uyğun olan doğru variantları seçin.**



1. Döş əzələləri yaxşı inkişaf etmişdir və cütdür.
2. Boynunda 1 ədəd fəqərə vardır.
3. Caynaqlar buynuz mənşəlidir.
4. Borulu sümüklərinin içi boşdur.
5. Yarandığı dövrdə toxumlu qıjılar yox olmuşdur.
6. Yura dövründə yaranmışdır.

**24. Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| 1. Döş boşluğu | a. qalxanabənzər vəzi |
| 2. Qarın boşluğu | b. epifiz vəzi |
| 3. Kəllə boşluğu | c. böyrəküstü vəzi |
| | d. hipofiz vəzi |
| | e.timus vəzi |

**25. Simpatik sinir sistemi hansı nahiyyələri innervasiya edir?**

1. Dəri damarları
2. Tər vəziləri
3. Böyrəküstü vəzinin beyin maddəsi
4. Sidik kisəsinin divarı
5. Qıl soğanaqlarının əzələləri
6. Ağız suyu vəziləri
7. İfrazat sistemi orqanları

**26. Mətni tamalayın.**

Açar sözlər: inkişafa, irsi dəyişkənlik, populyasiya, yaşlı fərdlər, nəslə, məhvə, cinsi yetişkənliyə malik, populyasiyanın sıxlığı, çarpazlaşma, uyğunlaşma, süni seçmə, genofondu, növlərin, cinslərin, təbii seçmə, genlər.

___________ cinsi tərkibi dişi və erkək fərdlərdən ibarət olur. Fərdlərin sayının dəyişməsi ilə əlaqədar olaraq __________________ da dəyişir. Populyasiyada __________ daha çox olarsa, populyasiya _________ doğru gedər. Az da olsa, müxtəlif populyasiyanın fərdləri arasında ______________ gedir. Hər bir populyasiyanın özünəməxsus _____________ olur. _________ dəyişməsi ilə əlaqədar olan bütün proseslər populyasiya daxilində gedir. ___________ nəticəsində sağ qalanlar öz genlərini ________ ötürürlər. Ötürülmə zamanı valideyn ________ dəyişmir. Lakin onlarda bəzən ____________ baş verir.

**27. Davametmə müddətinə görə eraları artan sıra ilə düzün.**

Situasiyanı oxuyun və 28,29,30 nömrəli sualları cavablandırın.

Şəkildə müxtəlif sindiromlar verilmişdir.



A B C

**28. Cədvəli tamamlayın.**

| Sindiromun adı | Sindiromun əlaməti |
|---|---|
| A. | |
| B. | |
| C. | |

**29. A və B sindiromunda xromosomların vəziyyətini izah edin.**

**30. “pişik çığırtısı” kimi adlandırılan sindirom hansı şəkildə göstərilmişdir və əsas əlaməti nədir?**

# Sınaq 2

**1. Bitki orqanizminin təsnifatını olan sıranı seçin.**
A. Aləm, Sinif, Tip, Dəstə, Cins, Fəsilə, Növ
B. Tip, Şöbə, Sinif, Sıra, Fəsilə, Cins, Növ
C. Aləm, Tip, Sinif, Dəstə, Fəsilə, Cins, Növ
D. Aləm, Şöbə, Sinif, Sıra, Fəsilə, Cins, Növ
E. Aləm, Sıra, Fəsilə, Sinif, Şöbə, Növ, Cins

**2. Mil kök sisteminə malik olan bitkiləri göstərin**
A. Quşəppəyi, zəncirotu
B. Zanbaq, bağayarpağı
C. Çovdar, Günəbaxan
D. Zanbaq,buğda
E. Soğan, buğda

**3. 75 yaşlı ağacda 13 yaşa uyğun halqa qatından neçənci qatda yerləşir?**
A. 62
B. 13
C. 63
D. 61
E. 88

**4. Aptek birəotu bitkisinin çiçək düsturu hansıdır?**
A. $K_0L_{(5)}E_{(9)+1}D_1$
B. $K_0L_{(5)}E_{(5)}D_1$
C. $K_{(5)}L_{(5)}E_{(5)}D_1$
D. $K_5L_5E_\infty D_1$
E. $K_5L_5E_\infty D_\infty$

**5. Şəkildəki rəqəmlə göstərilənlər hansı variantda düzgün adlandırılmışdır?**




A. 1. Venalar, 2. Yuxu arteriyası, 8. Qarın aortası
B. 3.Qəlsəmə arteriyaları, 6.Qarın aortası, 4. Yuxu arteriyası.
C. 5. Qəlsəmə arteriyası, 7. Kapilyar damar, 8. Qarın aortası
D. 3. Bel aortası, 2. Arterial damar, 7. Qarın aortası
E. 9. Ürək, 1.aortalar,. 3. Bel arteriyası. 4. qarın aortası

**6. “amfibi” nə deməkdir?**
A. Yalnız quru mühitdə yaşayan
B. Yalnız su mühitində yaşayan
C. İkili həyat keçirən
D. Hava ilə qidalanan
E. Parazit

7. **Yalnız məməlilərə xas xüsusiyyət hansıdır?**
A. Ağciyərlə tənəffüs
B. Daxili mayalanma
C. Süd vəziləri
D. Onurğalı olmaq
E. İstiqanlı olmaq

**8. Refleksin yaranmasında hansı neyronlar iştirak edir?**

A. Yalnız hissi neyronlar
B. Yalnız hərəki neyronlar
C. Hissi, ara və hərəki neyronlar
D. Yalnız ara neyronlar
E. Hissi və hərəki neyronlar

9. X+Y+Z+E tapı.
A. 7
B. 6
C. 4
D. 5
E. 8

| Çənə sümükləri | Dilaltı sümük | Xəlbir sümüyü | Aşağı burun balıqqulağı sümüyü |
|---|---|---|---|
| X | Y | Z | E |

**10. Sadalananlardan hansı doğrudur?**
A. Arteriyalar qanın ürəyə qayıtmasını təmin edir
B. Venalar qanın ürəkdən çıxmasını təmin edir
C. Ağciyər venaları oksigenli qan daşıyır
D. Bütün venalar həmişə oksigensiz qan daşıyır
E. Ağciyər arteriyası oksigenli qan daşıyır

**11. Qan dövranı tənəffüs sistemi ilə necə əlaqəlidir?**

A. Qan dövranı ilə tənəffüs sistemi əlaqəli deyil
B. Qan tənəffüs yolu ilə qlükoza daşıyır
C. Qan karbon qazını qida borusuna ötürür
D. Qan tənəffüs sisteminə təsir etmir
E. Qan oksigeni alveollardan alır və bütün orqanlara daşıyır

**12. Bir insanda süd dişlərinin 60%-i düşmüş və daimi dişlərin 75%-i çıxmışdır. Hazırki vəziyyətdə insanın ağzında ümumi neçə diş var?**

A. 30
B. 28
C. 26
D. 32
E. 24

13. **Mətndə təsvir olunan skorbut xəstəliyinin yaranma səbəbi nədir?**

A. A vitamininin çatışmazlığı
B. B1 vitamininin çatışmazlığı
C. C vitamininin çatışmazlığı
D. D vitamininin çatışmazlığı
E. K vitamininin çatışmazlığı